**Yaşamaq həyatın xanasına ilmə vuraraq yeni naxışlar toxumaq kimi. Hər rəngi bir-birinə yaraşdırıb ipi-ipə calamaq kimi. Həyat xanasının həvəsi ilə tanış olub əzilərək cərgəmizə düzülmək kimi... Uşaqlıq illərində qulağımızın eşitdiyi nağılların şirin xülyaları ilə röyalara dalıb həyatımızı da məhz o nağılların qəhrəmanı kimi şən və gözəl zənn edərdik.**

# İlahi eşqin sehri...

Ən böyük dərdimiz qələmimizi itirmək, oyuncağımızı sındıran qonşu uşaqlarla dalaşıb küsmək olurdu. Sonrasında qayğılı bir əlin sığalı ilə daha gözəl bir günə başlayırdıq. O zamanlar heç vaxt bitməyəcək düşüncəsi ilə bəzən üzülürdük. Hətta ürəyimizdə bircə tez böyüsəydim deyə Allaha dua edirdik. Anamızı niyə mən belə balacayam deyə məzəmmət də edərdik. O zaman dünyanı yalnız bizim zənn edərdik. Zaman keçdi, bir zamanların səbrsiz uşağı bu günün qayğılı böyüyünə, həm də ruhu cismindən ahıl olan birinə çevrildi. O nağıllar da xəyal oldu, oynadığımız oyunlar da. Uşaqlar heç düşünmür ki, böyüklərin nağılı da ağır olur. Onu daşımağa böyük ürək lazım olur. Biri yoxların bol olduğu böyük nağılları. Nə qədər qəribə səslənsə də, dövr edən dünyamızda, sürətlə keçən zamanın heç kimə və heç nəyə məhəl qoymadan getməsinə, eraların əsrləri əvəz etməsinə baxmayaraq, həyatda doğuluş və vida eyni olur. Fərq isə sadəcə dövrün və cəmiyyətin tələbləri, yazılmayan qanunların hökmranlığı olur. Hər dövrün öz qaydası, öz cəzası bəzən ədalətli, bəzən isə qatı hökmləri. Zamanəsinə boyun əyib tabe olan məzlumları, qanunlara asi olan, ağır cəzalara təlim edilsə də əqidəsini tərk etməyən qəhrəmanları. Ortalama insan ömrünü qorxu, həyəcanla yaşamaqdansa, həyatı yarıda kəsilib qəhrəmancasına əqidəsi uğrunda şəhadət edən insanlar. Haqq dünyasına qovuşsalar da dünyanın içində başqa bir dünya olan əbədiyaşar fatehlər. Fəth etdikləri könüllərin, sehirlədikləri ruh aləmlərinin görünməyən tilsiminin, sevgi odundan saçılan və ətrafı nura qərq edən qığılcımlarının sayəsində eldən-elə, dildən-dilə süzülərək filosofu, mütəfəkkiri olan seçilmişlər. Seçilmiş ifadəsi yad gəlməsin qulağınıza. Çünki yaradanın seçdiyi dahilərin sayı çox olmasa da, gücü-qüvvəsi sonsuz olur. O kəslərin dünyasına zaman, məkan məfhumları tamam yad olur.



Bu il 650 illik yubileyini qeyd etdiyimiz Seyid Əli İmadəddin Nəsimi kimi. Nəsimi də bu həyata məsum bir körpə olaraq gəlmişdi. XIV əsrin qayda-qanunlarına tabe olan bir ailədə böyüyürdü. Doğulub böyüdüyü Şamaxı üsyanlara, tufan və zəlzələlərə şahid olmuşdu. Şah zülmündən bezib, dövrün qaydalarını qıran Xaqanilərin, saray şeiriyyətinə tac olan Fələkilərin yurdunda onların nəfəsindən bəhrələnərək yetişirdi. Yaşı artdıqca el içində şan-şöhrəti də yaranırdı. İlahidən hədiyyəsi olan təbi ilə şah sarayına belə şöhrət çətiri tutmuşdu. Hər kəs onun istedadından danışır, o isə özü üçün tamam fərqli bir yol cizirdi xəyalında. Ruhu azad idi, elə ona görə də cismini qəfəsin əlvan boyalı barmaqlıqlarına həbs etmək istəmirdi, bu qəfəs dünyanın ən dəyərli daş-qaşları ilə bəzədilsə belə. O hürriyyət aşiqi idi. Ömrü boyu bir quş kimi azad qanad çalmaq və əngin səmaları, insan izinə həsrət məkanları fəth etmək istəyirdi. Bu istək onun yolunu Fəzilullah Nəimi ilə kəsişdirdi. Bu tanışlıq zaman içində ataoğul münasibətinə çevrildi. İsa Muğannanın təbirincə desək, o, Nəiminin gözünün nuru oldu. İnsanların qorxulu röyası olan ölüm dərəsi belə ona həyat mənbəyi kimi göründü. Nəsimi təxəllüsünü belə ustadının adına uyğun olaraq qəbul edən ölümsüz filosofun həyatı enişli-yoxuşlu, dağlıdərəli, bu dünyaya göz açdığı doğma Şamaxı kimi bol zəlzələli və tufanlı oldu. Həyatında tərki-vətənliyi belə dadan söz mülkünün sultanına çoxlu şər, böhtan atıldı. Kimisi sevgisindən, kimi də nifrətindən qəlb evinin qapılarını açdı onun üzünə. Klassik poeziyanın bütün naxışlarına yazdı adını. Bu adı pozmaq, o nümunələri məhv etmək istəyənlərin sayı onlarla oldu. Ancaq bu istəklər sadəcə bir xəyal olaraq zalım beyinləri bəzədi...

Əsrləri arxada qoyan hər dövrün alimi, şairi. Hər sözü, hər kəlməsi bir hikmətli fikir olan ölümsüz şairin ilahi eşqinin odu bütün nifrət yuvalarını xarabalığa çevirdi. Adına Nəsimi deyilən ustadın namı laməkan oldu. O bütün aləmləri kiçik olan cisminə sığdırdırdı. Zərrəsi olduğu bu cahana isə sığmadı. Şərqdən doğan söz mülkünün günəşi əsrlərin o tayından şəfəq saçdı dünyamıza. Yolu haqq, əqidəsi ruhun azadlığı, qovuşmaq istədiyi ali məqam isə ilahi eşq idi. Həyatı boyunca istəklərinə xilaf çıxmadı. Onun sevgisinin əzəmətini dərk etməyən nadanlar bu zirvənin aşırımlarından uçuruma yıxıldılar.

Sərrafi bəhri qüdrətəm, yaquti kani vəhdətəm

Söyləyən Nəsimi insanı bütün yaradılışların alisi qəbul etdi. O, varlığın və yoxluğun əzəli və əbədi məkanı kimi gördüyü insana tutdu üzünü. Düzlüyə, haqqa səslədi insanlığı. Haqdan dönən insan isə onu dinsiz, cahil kimi qələmə verdi. Həyatı boyu təqiblərə məruz qaldı. Fəqət heç bir hədəyə təslim olmadı. Həyatının son anlarında belə düşmənə göz dağı oldu sinəsi dağlı şair. Dövrün hakim təbəqələrinin qorxulu yuxusu olan şairin fikirləri doğrudan da zaman və məkan tanımadı. Bir zamanlar dinsiz deyə küfr edilən şairin qəzəlləri dünyanı fəth etməyə nail oldu. Adına poemalar, romanlar yazıldı.

Şəninə dahilər söz söylədi. Sovet məngənəsində sıxılanda belə həyatı ekran ömrü qazandı. Onun səhnə şöhrətinin işığı ilə parıldayan aktyorlar dünya miqyasında tanındılar. Qəzəlləri, tuyuqları dünya dillərinə tərcümə edildi. Bu gün musiqi ilə belə bir vəhdətdə həyat tapan qəzəlləri dünya poeziya və musiqi xəzinəsinə qızıl boyalarla nəqş etdi adını. Bu gün Nəsimi irsi onlarla tədqiqata məskəndir. Gələcək nəsillərin belə maraqlı istinad nöqtəsi olacaq Nəsimi irsi dünya durduqca yaşayacaq. Bu dünyanın vəfasına inanmayan şairin böyüklüyü qarşısında qoca dünya belə aciz qalacaq.

*Dünya duracaq yer deyil, ey can, səfər eylə!*
*Aldanma anın alına, andan həzər eylə*
*Bir halə qərar eyləməz əyyal, keçər ömr,*
*Ey əhli nəzər, baxma bu halə, nəzər eylə!*

***Rəfiqə RAFİQQIZI***